# Aqrar Universitetdə Azərbaycan milli mətbuatının 140 illiyi münasibəti ilə tədbir




Azərbaycan Dövlət Aqrar Universitetində Azərbaycan milli mətbuatının yaranmasının 140 illiyi münasibəti ilə tədbir keçirilmişdir.

Şəhər ictimaiyyətinin, professor-müəllim heyətinin, tələbələrin, KİV nümayəndələrinin iştirakı ilə gerçəkləşən tədbiri açan universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov 2 iyun 2015-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamın mətnini iştirakçılara çatdırdı. O, qeyd etdi ki, məhz 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Ötən yüzilliyin sonlarında isə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il avqust ayının 6-da Prezident Heydər Əliyevin imzaladığı xüsusi Sərəncamla Azərbaycanda mətbuat üzərindən senzura götürüldü. Həmçinin, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında Azərbaycan Respublikasının Qanununun (ARQ), digər hüquqi-normativ aktların qəbulu həyata keçirilib.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin (KİV) inkişafına Dövlət Dəstəyi Konsepsiyası (DDK) kimi mühüm bir sənəd təsdiq olunmuşdur. Konsepsiyaya uyğun olaraq 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİV) yaradılmışdır. Qədim, zəngin tarixə malik, 1933-cü ildən ölkənin yeganə aqrar təhsil müəssisəsi olan Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının alimlərinin təşəbbüsü ilə "Za selskoxozyaystvennıe kadrı", sonradan "Kadr uğrunda", hazırda "Aqrar mütəxəssis" adı ilə nəşr edilən qəzetin yaranması ideyası da məhz "Əkinçi" ənənələrindən doğmuş əlamətdar bir hadisə idi. Universitetin professor-müəllim heyəti bu ənənəyə sadiq qalaraq öz doğma qəzetini uzun illər yaşatmış və bu gün də yaşatmaqdadır. Çıxış edən jurnalistlər Müstəqil Azərbaycan mətbuatının ölkəmizin daxili informasiya tələbatını tam ödədiyindən, əhalinin informasiya almaq hüququnu, dövlət və vətəndaşlar arasında əlaqələndirici funksiyanı uğurla həyata keçirməyindən ətraflı söhbət açdılar. Tədbirdə professor-müəllim heyətinin və tələbələrin aktual çıxışları iştirakçıları məmnun etdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**